# Bakıda "Türk İnvestisiya Fondu və TCCI: Biznes Liderləri üçün Məlumatlandırma Görüşü və B2B" mövzusunda tədbir keçirilib

**Fevralın 14-də Bakıda "Türk İnvestisiya Fondu və TCCI: Biznes Liderləri üçün Məlumatlandırma Görüşü və B2B" keçirilib. Tədbir Türk Ticarət və Sənaye Palataları Birliyinin təşəbbüsü, Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) təşkilatçılığı və Azərbaycan Beynəlxalq Bankının baş sponsorluğu ilə baş tutub.**






Tədbirdə Türk İnvestisiya Fondunun vəsaitlərindən istifadə qaydaları, daxil olmuş layihələr üzrə seçim meyarları və maliyyələşdirmə mexanizmləri barədə ilk dəfə rəsmi açıqlamalar verilib. Eyni zamanda təşkilata üzv ölkələrdəki biznes və investisiya imkanları, o cümlədən Azərbaycanın investisiya imkanları barədə geniş təqdimatlar dinlənilib.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliyev, TCCI-nin fəxri prezidenti və TOBB-un prezidenti Rifat Hisarcıklıoğlu, Türk İnvestisiya Fondunun prezidenti Bağdat Amreyev, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev, TCCI və ASK-nın prezidenti Məmməd Musayev, Qazaxıstan Respublikası "ATAMEKEN" Beynəlxalq Ticarət Palatasının sədri Murat Kərimsakov, Özbəkistan Respublikasının Ticarət və Sənaye Palatasının sədri Davron Vaxabov, Qırğız Respublikası Ticarət və Sənaye Palatasının vitse-prezidenti Avazbek Kerimbayev, Şimali Kipr Türk Ticarət Palatasının prezidenti Turgay Deniz, Macarıstan Ticarət və Sənaye Palatası prezidentinin müşaviri Qabor Kiss çıxış edərək, türk dünyasının iqtisadi əlaqələri, birgə əməkdaşlıq layihələri və qarşılıqlı ticarət dövriyyələrinin artırılması üçün perspektivlərə toxunublar.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, Türk İnvestisiya Fondunun təsisçi ölkələrindən biri kimi, Azərbaycan bu fondun türk dövlətləri arasında iqtisadi əməkdaşlığı yeni mərhələyə daşıyacağına inanır. Fondun imkanlarından maksimum istifadə edilməli, ortaq layihələrlə və innovativ təşəbbüslərlə iqtisadi inteqrasiya daha da dərinləşməlidir. Bu əməkdaşlıq sayəsində biz türk dövlətlərinin iqtisadi potensialını tam şəkildə reallaşdıraraq, qlobal bazarlarda daha güclü mövqe tuta bilərik. Türk İnvestisiya Fondu ölkələrimiz arasında işbirliyinin stimullaşdırılmasında mühüm rol oynaya bilər. Bu, ticarətin və sahibkarlığın inkişafı, regional layihələrin, xüsusilə mikro, kiçik və orta müəssisələrin təşəbbüslərinin maliyyələşdirilməsi baxımından geniş perspektivlər vəd edir.

"Türk Dövlətləri Təşkilatı kimi aktiv və potensialı yüksək olan platformada birgə fəaliyyətimizin genişləndirilməsi iqtisadi dəyişikliklərə uyğunlaşma və inteqrasiya baxımından olduqca vacibdir ", - deyə Elnur Əliyev vurğulayıb.

Çıxışına Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" kəlamı ilə başlayan Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti, eyni zamanda Türk Ticarət və Sənaye Palataları Birliyinin İdarə Heyətinin sədri Məmməd Musayev qeyd edib ki, türk dünyası beynəlxalq arenada artıq təşkilatlanmış güc kimi çıxış etməkdədir. Türk Dövlətləri Təşkilatının çətiri altında fəaliyyət göstərən Türk Ticarət və Sənaye Palataları Birliyi və Türk İnvestisiya Fondu, türk dövlətlərinin iqtisadi inteqrasiyası yolunda mühüm addımlardır: "Bu istiqamətdə ciddi təşkilatlanma prosesi baş verib. Türk dövlətləri rəhbərlərinin dəstəyi ilə yaradılan Türk İnvestisiya Fondunun ölkələr arasında iqtisadi əlaqələrin inkişafına və sahibkarlıq təşəbbüslərinin reallaşdırılmasına böyük töhfə verəcəyinə inanırıq. Fond, iş dünyasının irəli sürdüyü layihələrin uğur qazanmasında mühüm rol oynayacaq".

M.Musayev vurğulayıb ki, Türk İnvestisiya Fondunun digər beynəlxalq fondlarla, eləcə də türk dövlətlərinin investisiya fondları ilə əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir: "Türk Ticarət və Sənaye Palataları olaraq, biz fondun fəaliyyətinin gücləndirilməsi üçün birgə çalışmalıyıq. Bu gün ilk dəfə olaraq fond maliyyə vəsaitlərinin ayrılması, onlardan istifadə qaydaları, seçiləcək layihələr üzrə meyarlar və maliyyələşdirmə mexanizmləri ilə bağlı açıqlamalar verəcək. Qarşıda bizi genişmiqyaslı işlər gözləyir və bu proses mərhələli şəkildə həyata keçiriləcəkdir".

M.Musayev vurğulayıb ki, bu platforma türk dövlətlərinin iş dünyasının bir-birini daha yaxından tanımasına xidmət edəcək: "İnanırıq ki, bu ilin sonuna doğru Türk İnvestisiya Fondunun təsdiq etdiyi ilkin layihələri sizinlə bölüşmək fürsətimiz olacaq. Biz konfederasiya olaraq türk dövlətlərini təmsil edən qurumlar və iş adamları ilə əməkdaşlığın genişləndirilməsi üçün öhdəmizə düşən vəzifələri yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək türk dünyasının iqtisadi qüdrətinin artması üçün bütün qüvvəmizi səfərbər edəcəyik".

Türk İnvestisiya Fondunun (TİF) prezidenti Bağdat Amreyev isə öz çıxışında türk dünyasının iqtisadi inkişafında beş əsas istiqaməti önə çəkib. Onun sözlərinə görə, ilk növbədə, ticarət və investisiya sahəsində maneələrin aradan qaldırılması vacibdir: "Bununla yanaşı, nəqliyyat və enerji əlaqələrinin gücləndirilməsi, regional təchizat zəncirlərinin genişləndirilməsi, innovasiya və rəqəmsal transformasiyanın təşviqi, eləcə də maliyyə əməkdaşlığının gücləndirilməsi və birgə maliyyələşdirmə mexanizmlərinin inkişafı prioritetlər sırasındadır".

B.Amreyev vurğulayıb ki, Türk İnvestisiya Fondu və onun törəmə təşkilatı olan TCCI-nin qısa tarixində ilk anlaşma memorandumu imzalanır. Bunu yüksək qiymətləndirən Türk İnvestisiya Fondunun rəhbəri qeyd edib ki, bu, sadəcə bir imzalama mərasimi deyil, həm də türk dünyasının biznes icması üçün əlamətdar gündür: "Türk Dünyası Baxışı 2040" çərçivəsində türk ölkələri arasında kapitalın, insanların, malların və xidmətlərin sərbəst hərəkətini təmin edəcək vahid iqtisadi məkanın yaradılması hədəflənir. Türk dünyası strateji iqtisadi dəhlizə çevrilir və indi bu vizyonu gerçəkləşdirməyin vaxtıdır. Biz taleyimizi formalaşdıracaq uzun bir yolun başlanğıcındayıq və bu inkişafın əsas aparıcı qüvvəsi biznes icması olacaq".

Türk Dövlətləri Təşkilatlarına (TDT) üzv ölkələr arasında ticarət məhdudiyyətlərinin aradan qaldırılması təklifi ilə Türk Ticarət və Sənaye Palataları Birliyinin (TCCI) Fəxri Prezidenti Mustafa Rifat Hisarcıklıoğlu çıxış edib. Onun sözlərinə görə, bu, ölkələr arasında ticari-iqtisadi əlaqələri inkişaf etdirəcək: "Hazırda bu istiqamətdə ölkələr iş görür. Lakin bu proses sürətli aparılmalıdır ki, ticarətimiz inkişaf etsin. Trans-Xəzər keçidlərini daha səmərəli istifadə etməliyik, TANAP-ın potensialını daha da artırmalıyıq, Türkmənistan təbii qazının Avropaya ötürülməsi bizim üçün prioritet mövzular olmalıdır".

R.Hisarcıklıoğlu əlavə edib ki, türkdilli dövlətlər təhsil sistemlərini sahibkarlığa uyğunlaşdırmalıdır: "Startapları, blokçeyn layihələrini dəstəkləməliyik".

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, KOB-larla bağlı layihələrin maliyyələşdirilməsi onların inkişafına dəstək olmaqla yanaşı, Fondun məqsədlərinə də töhfə verə bilər: "Fond KOB-larla bağlı layihələri maliyyələşdirməyi hədəfləyir. Bu istiqamətdə yerli sahibkarlara fondun investisiyalarının cəlb edilməsini asanlaşdırmaq üçün birgə KOB maliyyələşdirmə proqramının yaradılması nəzərdən keçirilə bilər".

O.Məmmədov bildirib ki, TİF nəqliyyat və logistika zəncirinin genişləndirilməsini də dəstəklədiyindən, KOB-ların regional təchizat zəncirinə inteqrasiyasını təşviq etmək məqsədilə KOB İxrac Akseleratorunun yaradılmasına dəstək verməlidir. O hesab edir ki, ilkin mərhələdə bu platformanın rəqəmsal formatda fəaliyyət göstərməsi planlaşdırıla bilər.

"Yaşıl maliyyələşdirmə"yə toxunan KOBİA sədri vurğulayıb ki, COP29 çərçivəsində elan edilmiş "KOB-ların Yaşıl Keçidi üzrə Bakı İqlim Koalisiyası" çərçivəsində KOB-ların "yaşıl maliyyələşdirilmə"si mexanizmlərinin yaradılması və iqlim yönümlü layihələrin dəstəklənməsi istiqamətində əməkdaşlıq imkanları mövcuddur.

"KOBİA ekoloji, sosial və korporativ prinsiplərinin tətbiqini fəal şəkildə dəstəkləyir və bu məqsədlə ESGHUB platforması yaradılıb", - deyə O.Məmmədov bildirib.

Tədbirdə Türk İnvestisiya Fondu ilə TCCI arasında anlaşma memorandumu imzalanıb. Sənədi TCCI-nin və ASK-nın rəhbəri Məmməd Musayev və Türk İnvestisiya Fondunun prezidenti Bağdat Amreyev imzalayıb. Memorandumda əməkdaşlıq üçün çərçivələr və konkret istiqamətlər müəyyən edilib.

Sonra Türk İnvestisiya Fondunun missiyası, məqsədləri və prioritetləri, Ələt Azad İqtisadi Zonasının və Qarabağın, Türk Dövlətlər Təşkilatına üzv ölkələrin investisiya və biznes imkanları haqqında təqdimatlar dinlənilib.

Tədbir işini "B2B" görüşlər və biznes şəbəkələşmə ilə sona çatdırıb.

Azərbaycan. - 2025.- 15 fevral (№34).- S.2.